2 Avqust Milli Kino Günüdür

Kino ictimai həyatımızda güdrətli silahdır

Azərbaycanda ilk kino istehsalına başlanmasından 108 il keçir. Bu yol çətin, enişli-yoxuşlu, həm də şərəfli olub. Ötən əsrin əvvəllərindən bəzən kişi aktyorlar qadın paltarı geyinərək kamera qarşısında oynayıblar. Yaratdıqları obrazlara görə ən ağır təhqirlərə məruz qalıblar. Lakin amallarından, məslək və əqidələrindən dönməyiblər. Fəxr ediblər ki, ürəklərindən keçən arzuları, zamanın yaxşı-yaman olaylarını lent yaddaşlarına köçürürlər. Həmin qısasüjetli, tammetrajlı filmlərdən xeyli fraqmentlər, çoxlu şəkillər bugünümüzə yadigar qalıb.

Azərbaycan kinosu ilk dəfə 1924-cü ildə ekranlara səssiz, yəni fonoqramsız çıxıb. Həmin illərdə milli kino tariximizdə bir sıra bədii və sənədli ekran əsərləri yaranıb. Onlardan "Bayquş", "Qız qalası", "Bismillah", "Hacı Qara", "Əvəz-əvəzə", "Əlbəyaxa", "Balıqçılar", "Gilan qızı", "Vulkan üzərində ev" və başqa filmlərin adlarını çəkmək olar.

1935-ci ildə professor N.Şorinin düzəltdiyi səsyazma aparatı ilə Azərbaycan kino tarixində ilk səsli filmlər çəkilməyə başlanıldı. Həmin il Moskvanın "Mejrabpromfilm" studiyası ilə birgə çəkilmiş "Göydəniz sahillərində" adlı səsli kino ekranlara vəsiqə aldı.

Sonrakı illərdə milli kino tariximizdə ağ-qara təsvirli səsli filmlərlə yanaşı, rəngli ekran əsərləri də yaradılmışdır. Belə filmlərdən 1953-cü ildə rejissor R.Karmen tərəfindən ekranlaşdırılmış "Xəzər neftçiləri haqqında dastan" adlı sənədli-musiqili və rəngli filmin adını çəkmək olar. 1954-cü ildə "Doğma xalqımıza" adlı ikinci rəngli ekran əsəri tamaşaçıların ixtiyarına verildi. Böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" adlı musiqili komediyası isə 1956-cı ildə rəngli təsvirdə Azərbaycan və rus dillərində ekranlaşdırıldı. Əgər 1945-ci ildə rejissor Rza Təhmasibin ağ-qara təsvirli "Arşın mal alan" adlı musiqili komediyası keçmiş Sovetlər İttifaqında yüksək səviyyədə qarşılanmışdısa, "O olmasın, bu olsun" kino-komediyası isə dünya kinosevərlərinin marağına səbəb oldu.

1970-80-ci illər isə Azərbaycan kinosunun tərəqqi dövrü kimi tarixə yazılıb. Həmin illərdə "Nəsimi", "Dədə Qorqud", "Babək", "İstintaq", "Bir cənub şəhərində" və başqa filmlər respublikamıza rəhbərlik edən, sözün, sənətin qədrini bilən ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində araya-ərsəyə gəlmişdir. Məlumdur ki, o zamanlar "qırmızı imperiya"nın göstərişi ilə işləməyə, yazıb-yaratmağa daha artıq üstünlük verilirdi. "İstintaq" filmi müəyyən qədər bu ölçü daxilindən kənara çıxmışdı. Mərkəz onun ekranda göstərilməsinə icazə vermirdi. Bu barədə ümummilli liderimiz Heydər Əliyev sonralar belə demişdir: **"...Moskvada işləyəndə kinematoqrafiya da mənə tabe idi. Ona rəhbərlik edirdim. Azərbaycanda çəkilmiş "İstintaq" filmi barədə cürbəcür danışıqlar dolaşırdı. Rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş filmin axır ki, geniş auditoriyaya çıxmasına nail oldum".**

Ötən əsrin sonuncu onilliyinin əvvəllərində isə milli kinomuz yenidən ağır günlərini yaşadı. Bu dövrdə bədii filmlər istehsalı dayanmışdı. Bəlkə buna potensial güc, enerji, kadr çatmırdı? Yaxud, yaradıcı qrup fəaliyyətdən düşmüşdü? Xeyr! Sadəcə olaraq bu sahənin özünə qarşı qayğı unudulmuşdu. Nəhayət, bu acınacaqlı vəziyyətə son qoyuldu. 18 dekabr 2004-cü ildə ulu öndər Heydər Əliyev fərman imzaladı. Fərmanda deyilirdi: "...Xalqımızın mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərinin və ölkəmizdə çəkilmiş kinosüjetlərin 1898-ci il avqustun 2-də ilk kinoseansın həyata keçirildiyini nəzərə alaraq qərara alıram: 2 avqust kino işçilərinin peşə bayramı–Azərbaycan Kinosu Günü elan edilsin". Həmin sənəd tamaşaçılar və kino yaradıcıları tərəfindən ədəbi hadisə kimi qarşılandı.

Həmin illərdə "Gecə qatarında qətl", "Şahid qız", "Zirzəmi", rus və Azərbaycan kinematoqrafçılarının birgə çəkdikləri "Qətldən yeddi gün sonra", "Fəryad", "Haray", "Ağ atlı oğlan", "Sarı gəlin" və başqa filmləri göstərmək olar.

Kinomuzun təbliği üçün bu gün də ölkəmizdə bir sıra işlər görülür. Belə dövlət qayğısından muxtar respublikamız da kənarda qalmayıb. Paytaxt şəhərimizdəki Gənclik Mərkəzi bunun bariz ifadəsidir. Bir neçə il əvvələ qədər burada fəaliyyət göstərmiş kinoteatrın binası yenidən qurularaq müasir üslubda istifadəyə verilib. Bu mədəniyyət müəssisəsində tamaşaçıların rahatlığını təmin etmək üçün hər cür şərait yaradılıb. 430 yerlik tamaşaçı zalında adi və geniş ekranlı kinofilmlərlə yanaşı, videokasetlə DVD markalı kompakt disklərə yazılmış filmlərin göstərilməsi üçün avadanlıqlar da quraşdırılmışdır. Tamaşaçı zövqünü oxşayan, beynəlxalq müsabiqələrdə yer tutan, kinofestivallarda mükafatlar alan sənədli və bədii filmlərin göstərilməsi də yüksək səviyyədə təşkil olunub. Göstərilən daha bir qayğı isə Naxçıvan Dövlət Film Fondunun Muxtar Respublika Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə keçirilməsi və ona kino arxivi hüququ verilməsidir.

Biz də 2 Avqust Azərbaycan Kinosu Günü münasibətilə muxtar respublikanın kino işçilərinin peşə bayramını təbrik edir, onlara uğurlar arzulayırıq.

Feyruz BAĞIROV,
Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyət üzrə elmi-metodik mərkəzinin klub və kino xidməti şöbəsinin müdiri